# Müstəqil iş elanları saytlarından toplanılan məlumatlar əsasında əmək bazarında tələb olunan peşə və bacarıqların müqayisəli təhlili (2022–2025)

## Konseptual əsas

İş elanlarının kəmiyyət təhlili beynəlxalq təcrübədə əmək bazarı informasiya sisteminin mühüm tərkib hissəsi kimi çıxış edir. Əmək bazarının monitorinqində, iş tələbinin və onun struktrunun müəyyən olunmasında, eləcə də trendlərin izlənməsində və işçi tələbinin proqnozlaşdırılmasında aktiv istifadə olunur. Bir çox inkişaf etmiş ölkələrdə, xüsusilə Birləşmiş Krallıqda istifadə olunmaqdadır. Avstriya Dövlət Məşğulluq Xidməti tərəfindən hazırlanmış peşə və bacarıqların proqnozlaşdırılması və təhlili sistemi olan AMS-Bacarıqlar Barometrinin əsas tərkib hissələrindən biridir.

## Metodologiya

Tədqiqat çərçivəsində əmək bazarında işçi qüvvəsinə olan tələbatın təhlili məqsədilə 2022–2025-ci illər üzrə müstəqil iş elanı platformalarından məlumatlar toplanmışdır. Məlumat mənbəyi kimi ***ölkənin tanınmış iş elanı saytlarında*** yerləşdirilmiş vakansiyalardan istifadə edilmişdir. ***Ümumilikdə, 4 il ərzində bu platformalardan 61 400 vakansiya məlumatı toplanaraq vahid data baza formalaşdırılmışdır.***

Məlumatlar toplanarkən bütün göstəricilər ayrıca qeyd olunmuş (strukturlaşdırılmış), daha sonra isə məlumat bazasına daxil edilmişdir.. Bu göstəricilərə vakansiyanın yerləşdirilmə tarixi, müəssisənin adı, vakant vəzifənin adı, təklif olunan əməkhaqqı, tələb olunan iş təcrübəsi, təhsil tələbləri, yaş məhdudiyyətləri və vakansiya mətnində qeyd olunan yumşaq bacarıqlar (soft skills) və s. daxil edilmişdir. Toplanmış məlumatlar sonradan təhlil üçün vahid formatda məlumat bazasına inteqrasiya edilmişdir.

Məlumatların təmizlənməsi mərhələsində təkrar elanların (duplicated entries) aradan qaldırılması üçün ikili kombinasiyalara əsaslanan müqayisə metodu tətbiq edilmişdir. Bu metod çərçivəsində bütün elanlar arasında aşağıdakı şərt üzrə uyğunluq yoxlanılmışdır: əgər vakansiyanı yerləşdirən müəssisə, vakant vəzifənin adı və əsas tələblər (təhsil, iş təcrübəsi və digər tələblər) eyni olmuş və bu elanların birinin başlama tarixi ilə digərinin bitmə tarixi arasında 3 aydan az zaman fərqi olmuşdursa, həmin elanlar eyni vakansiya kimi qəbul edilmişdir. Bu halda yalnız son tarixə aid olan elan saxlanılmış, digər elan isə məlumat bazasından silinmişdir. Bu yanaşma eyni vakansiyanın müxtəlif vaxtlarda yenidən yerləşdirilməsi nəticəsində yaranan təkrar qeydlərin aradan qaldırılmasına imkan vermişdir.

Məlumatların təmizlənməsi və strukturlaşdırılması mərhələsindən sonra formalaşdırılmış məlumat bazası əsasında 2022–2025-ci illər üzrə vakansiya sayları, əmək bazarında tələb olunan peşələr, əməkhaqqı səviyyələri, təhsil və iş təcrübəsi tələbləri, yaş məhdudiyyətləri və tələb olunan yumşaq bacarıqlar üzrə müqayisəli təhlillər aparılmışdır. Təhlillər əsasən deskriptiv statistika, pay bölgüsü və illər üzrə dinamik müqayisə üsulları vasitəsilə həyata keçirilmişdir.

## Müqayisəli təhlil nəticələri







İqtisadi fəaliyyət növləri üzrə bölgü (**İFN**) göstərir ki, 2022–2025-ci illər ərzində vakansiyaların ən böyük hissəsi **topdan və pərakəndə ticarət, avtomobil və motosikletlərin təmiri** sahəsində olub. Bu sahə bütün illər ərzində ən çox iş elanının verildiyi sahə olaraq qalıb. Lakin illər keçdikcə bu sahənin ümumi vakansiyalar içində payı bir qədər azalıb. Bu isə o deməkdir ki, ticarət sahəsi yenə də əsas sahələrdən biridir, amma digər sahələrdə də iş yerləri artmağa başlayıb.

Maliyyə və sığorta fəaliyyəti isə bütün dövr ərzində ikinci ən böyük sahələrdən biri olub. Xüsusilə 2023 və 2025-ci illərdə bu sahədə iş elanlarının payı daha yüksək olub. Bu da bank, sığorta, kredit və digər maliyyə xidmətləri sahəsində işçi tələbinin davam etdiyini göstərir.

Emal sənayesi, tikinti, yaşayışın təşkili və ictimai iaşə, informasiya və rabitə sahələri də bütün illər üzrə önəmli yer tutmuşdur. Xüsusilə tikinti sahəsinin payında artım meyli müşahidə olunur ki, bu da

inşaat və infrastrukturla bağlı əmək tələbinin gücləndiyini göstərir. Təhsil sahəsi isə nisbətən sabit paya malik olmuş, əmək bazarında daim tələb olunan sahələrdən biri kimi qalmışdır.






Müəssisələrin fəaliyyət istiqamətinə görə ilk 10-luq göstərir ki, araşdırılan illər ərzində iş elanlarının böyük hissəsi əsasən **banklar**, **tikinti və inşaat şirkətləri**, **təhsil mərkəzləri**, **elektronika və məişət texnikası satan şirkətlər**, həmçinin **İT şirkətləri** tərəfindən yerləşdirilib. Bu o deməkdir ki, əmək bazarında ən çox iş yerləri xidmət, maliyyə, təhsil, texnologiya və tikinti sahələrində yaranır.

**Banklar** 2022 və 2023-cü illərdə ən çox vakansiya verən müəssisələr sırasında birinci yerdə olub. 2024-cü ildə bir qədər azalma olsa da, 2025-ci ildə banklar yenə də lider mövqedə qalıb. Bu isə bank sektorunda işçi tələbinin daim yüksək olduğunu göstərir. Xüsusilə satış, kredit, müştəri xidmətləri və əməliyyat işləri üzrə vakansiyalar bu sahədə daha çox olur.

**Tikinti və inşaat şirkətləri** üzrə vakansiyaların payı 2024 və 2025-ci illərdə artıb. Bu isə tikinti sahəsində layihələrin və iş həcminin artdığını göstərir. Yəni bu sahədə işçi qüvvəsinə ehtiyac daha çox olub.

**Təhsil mərkəzləri, hotellər, restoran və kafelər, istehsal müəssisələri** və **logistika şirkətləri** də bütün illər ərzində ilk 10-luqda yer alıb. Bu isə xidmət və istehlak yönümlü sahələrin əmək bazarında mühüm yer tutduğunu göstərir. **İT şirkətlərinin** payı bəzi sahələr qədər yüksək olmasa da, bütün illər ərzində ilk 10-luqda qalması göstərir ki, informasiya texnologiyaları və rəqəmsal bacarıqlara tələbat daim mövcuddur.



Peşə istiqamətləri üzrə bölgü göstərir ki, 2022–2025-ci illərdə əmək bazarında ən çox tələb olunan iş istiqaməti satış sahəsinə aid peşələr olub. Bütün illər ərzində satış üzrə vakansiyalar ən yüksək paya malik olub. Bu isə göstərir ki, ticarət və xidmət sahəsində iş yerləri əmək bazarında əsas yer tutur.

İkinci ən çox tələb olunan peşələr **mühasibatlıq** qrupuna aid işlər olub. Mühasib vakansiyalarının bütün illər ərzində yüksək səviyyədə qalması onu göstərir ki, müəssisələrdə maliyyə uçotu, hesabatların hazırlanması və maliyyə nəzarəti ilə bağlı işçilərə daim ehtiyac var. Yəni mühasibatlıq əmək bazarında ən stabil və davamlı tələb olan sahələrdən biridir.

**Satınalma və təchizat, SMM və rəqəmsal marketinq, insan resursları və işə qəbul, müəllimlik, kredit mütəxəssisi, proqramçı, təcrübə proqramları və resepsn/məlumat xidməti** üzrə vakansiyalar da ilk 10 ən çox tələb olunan peşələr sırasında yer alıb. Bu isə göstərir ki, əmək bazarında həm ofis və inzibati işlərə, həm də rəqəmsal və ixtisas tələb edən işlərə eyni zamanda ehtiyac var.

Burada maraqlı məqam ondan ibarətdir ki, **proqramçılıq və rəqəmsal marketinq** kimi daha yeni nəsil peşələr ilk 10-luqda qalsa da, satış, mühasibatlıq və kredit kimi ənənəvi funksiyalar yenə də daha yüksək paya malikdir. Bu isə əmək bazarının transformasiya mərhələsində olduğunu, lakin klassik biznes funksiyalarının hələ də üstün mövqedə qaldığını göstərir.



Əməkhaqqının iş elanlarında göstərilməsi ilə bağlı statistika göstərir ki, bütün illər ərzində vakansiyaların böyük hissəsində maaş məbləği açıq şəkildə göstərilməyib. Yəni iş elanlarının əksəriyyətində əməkhaqqı **gizli saxlanılıb**. 2022-ci ildə maaşı açıq göstərən elanların payı daha çox olsa da, 2023 və 2024-cü illərdə bu göstərici azalıb. 2025-ci ildə isə bir qədər artım olsa da, yenə də elanların çoxunda əməkhaqqı qeyd olunmayıb.

Təklif olunan əməkhaqlarının illər üzrə ədədi ortası göstərir ki, xüsusilə təqdim olunan nümunə üzrə əməkhaqqı səviyyəsində **ardıcıl artım** müşahidə olunur. 2022-ci ildə orta əməkhaqqı təxminən 745 AZN olduğu halda, 2023-cü ildə bu göstərici 858 AZN-ə, 2024-cü ildə 939 AZN-ə, 2025-ci ildə isə 959 AZN-ə yüksəlmişdir.







Yumşaq bacarıqlar üzrə bölgü göstərir ki, bütün illər ərzində iş elanlarında ən çox tələb olunan bacarıq **ünsiyyət bacarığı** olub. Yəni işəgötürənlər namizədlərin insanlarla düzgün ünsiyyət qurmağı, fikrini aydın izah etməyi və kollektivlə işləməyi bacarmasına xüsusi önəm verirlər.

İkinci və üçüncü ən çox tələb olunan yumşaq bacarıqlar olaraq **komanda işi** və **məsuliyyətlilik/cavabdehlik** çıxış edir. Bu isə onu göstərir ki, işəgötürənlər təkcə peşə biliklərinə deyil, həm də kollektivdə işləyə bilən və işini vaxtında və düzgün yerinə yetirən işçilərə üstünlük verirlər. **Dəqiqlik, detallara diqqət** və **analitik düşünmə** bacarıqları da ən çox tələb olunan bacarıqlar sırasındadır. Bu isə o deməkdir ki, işəgötürənlər diqqətli və düşünərək qərar verə bilən işçiləri daha çox axtarırlar.

Maraqlı məqamlardan biri odur ki, bütün illərdə müəyyən hissə elanlarda **yumşaq bacarıq tələbinin ümumiyyətlə göstərilmədiyi** görünür. Bununla yanaşı, problem həll etmə, operativlik, kreativlik və təşkilatçılıq kimi bacarıqların payı daha az olsa da, onlar bütün illər ərzində ən çox tələb olunan bacarıqlar siyahısında qalır. Bu isə göstərir ki, əmək bazarında çox bacarıqlı və müxtəlif işləri görə bilən işçilərə maraq artır.



Yumşaq bacarıqlar üzrə tələblər (2025-ci il üzrə ilk 10-luq)
Ünsiyyət bacarıqları
44.8%
46.3%
42.5%
43.3%
Komanda işi
37.6%
37.0%
35.0%
38.5%
Məsuliyyətlilik / Cavabdehlik
32.4%
31.0%
27.9%
32.2%
Dəqiqlik detallara diqqət etmə / Punktuallıq
30.3%
29.4%
27.6%
30.7%
Analitik düşünmə / Analitik təhlil etmə
21.2%
22.7%
21.4%
22.7%
Tələb yoxdur
14.6%
14.9%
18.5%
16.7%
Problem həll etmə
12.9%
13.7%
15.1%
15.0%
Sürətlilik, operativlik, çeviklik
12.2%
13.5%
11.4%
12.1%
Kreativlik, innovativlik, yenilikçilik
12.6%
13.6%
10.5%
10.9%
Təşkilatçılıq
8.2%
8.4%
9.8%
9.7%
2022
2023
2024
2025

**Peşə istiqamətləri üzrə qruplaşdırılan vakansiya adları**

**Satış:** Satış mütəxəssisi, satıcı, satış nümayəndəsi, satış məsləhətçisi, satış təmsilçisi

**Mühasibatlıq:** Mühasib, mühasib köməkçisi, mühasib-operator, əməliyyatçı-mühasib

**Satınalma və təchizat:** Satınalma mütəxəssisi, tender üzrə mütəxəssis, təchizat üzrə mütəxəssis, təchizatçı, alış meneceri

**SMM və məzmun xidməti / Rəqəmsal marketinq / Kopirayter: Sosial media meneceri, məzmun yaradıcı, kopirayter, rəqəmsal marketinq mütəxəssisi**

**İnsan resurslarının idarə edilməsi: Əmək münasibətləri üzrə mütəxəssis, HR köməkçi, insan resursları mütəxəssis, işə qəbul üzrə mütəxəssis**

**Müəllim: Müxtəlif fənnlər üzrə müəllim (Fizika, Coğrafiya, Riyaziyyat, İngilis dili və s.)**

**Kreditlər və onların verilməsi: Kredit işçisi, kredit mütəxəssisi**

**Proqramçılıq: Mobil (Android və İOS ) developerlər, Back-end , Front-end, Full stack proqramçılar və s.**

**Təcrübə proqramı, könüllü işlər: Bütün peşələr/sahələr üzrə təcrübə proqramları və könüllü işlər bu qrupda cəmləşdirilmişdir.**

**Resepşn, məlumat xidməti:** Resepşn, qeydiyyatçı, qəbul katibəçisi, məlumat mərkəzi əməkdaşı